# Ədəbi mühitimiz qaynar deyil

## Səxavət Sahil: "Köhnə estetika ilə, romantizm üslubunda çağdaş nəsr yazmaq müəllif haqqında qeyri-ciddi imic formalaşdırır"

**Müsahibimiz gənc yazar Səxavət Sahildir:**

**- "Nar silsiləsi" maraqla qarşılanmışdı. Yenə şeir yazırsanmı?**

- İndiki gənclər arasında istedadlı şairlər var, mövzuları müxtəlif olsa da aşağı-yuxarı eyni "ritm"də yazırlar. Yəni, bir-iki ad istisna olmaqla onların imzasını dəyişdirsən müəllifin kimliyi bilinməyəcək. Mən də bunu həmişə düşünürdüm. Ona görə mətn və ifadə baxımından fərqlənmək üçün şeirlərimdə nar və onun elementlərindən istifadə elədim. Və bununla da özü üslubumu yaratdım. Üslub sözü böyük səslənməsin, demək istədiyim odur ki, fərqi yarada bildim. İndi hansısa saytda və ya qəzetdə müəllifsiz nar haqqında şeir çap olunsa, ilk ağla gələn mən olacam. Məncə, şeirdə əsas peşəkarlıq digərlərindən fərqli yazmaqdır, bu da sonra üsluba çevrilir. Şeiri kiməsə oxşadıb yazmaq mənasız vaxt itkisidir, hətta oxşadıb populyar da ola bilərsən, amma bu uzun ömürlü olmayacaq. Orijinalın yanında min bənzəri olsa da yenə də dəyəri yoxdur. Hesab edirəm ki, bu gün bizim ədəbi mühitdə bilərəkdən və ya bilməyərəkdən bir-birini təkrarlamaq və bənzətmək kütləvi hal alıb. Məsələ burasıdır ki, bu bənzəmə və təkrarlamalar da istedadlı gənclər tərəfindən edilir. Müxtəlif səpkili üslublar yaratmaqla bundan qurtulmaq olar.

Mənim üçün hər bir şeirdə nar elementi istifadə eləmək artıq qaydaya çevrilib, hətta deyim ki, bundan ləzzət də alıram. Qəribədir ki, şeir yazanda nar öz payını həmişə "göndərir". Bəzən nar mənə şeirdə düşündüyümü ifadə eləməkdə kömək edir. Yenə də, sadə dildə, pafossuz "Nar silsiləsi"ni davam etdirəcəm. Artıq narın "meyvəsini dərməyə" hazırlaşıram, bu yaxınlarda "Nar ağacının nəğmələri" adlı şeirlər kitabım çap olunacaq.

**- Dünyada roman populyar janr olsa da, biz də hələ də şeir öz birinciliyini saxlayıb. Bunu nə ilə əlaqələndirirsən?**

- Sualınız ciddi araşdırma, təhlil etmə xarakterli olduğundan bir-iki cümlə ilə ona cavab vermək çətindir. Biz mahiyyətcə və məişətcə şərq xalqıyıq. Şərqdə nə qədər ciddi düşüncə sahibləri, böyük şairlər olsa da adi məişət xırdalıqları bizi daim narahat edib. Leyli-Məcnunun sevgisini məişət düşüncəsindən çıxarıb haralara qədər aparıblar. Özü də bunu şeirin, qəzəlin köməyi ilə ediblər. "Min bir gecə"ni oxuyanda görürsən ki, nə qədər məişət mövzusu var. Yəni şeir bizim evimizin, içindədir, ailemizin bir üzvüdür. Onu evimizdən necə qova bilərik? Bizi çox vaxt əvvəl evin içi düşündürüb, sonra çölü Şərqdə şeir miqyasına görə istedaddan çox ənənəvi hal almışdı, indi də bu belədir. Qərb isə başqa düşüncənin sahibidir. Onlar evin içində bayıra baxmağı bacarıblar. Bu da geniş düşüncə deməkdir, təxəyyül deməkdir. Evin içini görürsən, çölünü isə düşünə bilirsən, bu düşünmə də təxəyyül yaradır. Qərb romançılığının tarixinə baxsaq görərik ki, ilk romanlar təxəyyülün məhsuludur, macəra və cəngavərlik haqqındadır. Bəzən olmayan bir cəngavər haqında romanlar yazırdılar. Qərbdə romançılıq ənənəvi olub. Bizdə isə poeziya.

Şeirdən nəsrə keçən nə qədəm imzalarımız var. Yaradıcılığa şeirlə başlayan sonradan nasir kimi tanınan yazarları misal gətirmək olar. Bunun özü də bir göstəricidir. Biz şeir sevən xalqıq. Toydan tutmuş yasa qədər, ad günləri də daxil olmaqla şeirsiz keçmək mümkün deyil. Həm də şeir pul gətirib çox zaman, dolanışıq mənbəyi olub. Tamadalar və aşıqlar şeirlərdən istifadə edərək məclisləri idarə ediblər. Roman, hekayə isə belə yerlərdə keçərli deyil. Yəni şeiri cəmiyyətə "tətbiq" edə bilərik, romanı isə mümkün deyil. Gərək nəsillər, düşüncə dəyişə ki, roman birinciliyi ələ alsın. Məncə, o qədər roman yazılmalıdır ki, artıq romanlar bizim evimizin içinə girib ailənin bir üzvünə çevrilə bilsin.

**- "İsanın qadını" romanından sonra yeni roman üzərində işləyirsən?**

- "İsanın qadını"nından sonra "İncil" süjetləri əsasında, lakin bu günümüzü, cəmiyyətimizi əks etdirən "Min ilin qayıdışı" adlı roman yazmışam. İsa peyğəmbərin indiki dövrdə zühur etməsindən bəhs edir. 2015-ci ildə yazsam da, hələ çap etdirməmişəm. Gələn il nəşr etməyi düşünürəm. Bundan başqa yarımçıq qalmış romanım var, onu da bitirəcəm. Roman yazmaq yazıçıdan ciddi məsuliyyət və ardıcıllıq tələb edir.

**- Romanın ədəbi mühitdə bir o qədər diqqət mərkəzində olmadı. Oxucular necə, ümumiyyətlə, romanının taleyindən razı qaldınmı?**

- Tək mən yox, digər roman yazanlar var ki, heç bir "kruqa" qoşulmurlar ona görə onlar da diqqətdən kənarda qalırlar. Şahidi olduğum bir hadisəni danışıb hər şey aydın olacaq. Ciddi imza hesab elədiyimiz adamlardan biri roman yazan bir sənətkar haqqında məqalə yazmışdı. Yazını oxuyandan sonra məqalə müəllifinə dedim ki, o romanda baş verən mətn içindəki mətn tamam ayrı mətləbdən bəhs edir, sən yazan istiqamət isə tamam başqadır. Mənə dedi ki, "romanı oxumamışam, bunu müəllifin zəhlətökənliyinin nəticəsi kimi qiymətləndir".

Tənqidçi mənə deyir ki, istəyirsən sənin romanından yazım? Bəyəm əsər haqqında yazmaq istəklə olur?! Mən belə işlərdən uzağam.

Oxucular məsələsinə gələndə isə deyim ki, roman çap olunan vaxtlarda ən çox satılan kitab olub, sonrakı vaxtlarda da yuxarı yerlərdə qərar tutmuşdu. 2014-cü ildə isə nəşriyyatın çap etdiyi 100 yerli müəllif içində 16-cı olmuşdu. İndi mağazada kitabım qalmayıb, hamısı satılıb. Bundan artıq nə olmalıdır ki?!

**- Romana olan tənqidləri qəbul etdinmi?**

- Əsas tənqid romandakı açıq-saçıq səhnələrin olması ilə bağlıdır. Mən insan həyatını yazıram, qəhrəmanım elə yaşayıb mən də elə yazmışam. Ən çox da




deyirdilər romanın əsas personajı olan qadın söyüşlə danışır, ədəbsiz sözlərdən istifadə edir. Mən bu obrazı həyatdan götürmüşəm, amma burda öz təxəyyülüm ana xətt təşkil edir. Bu ailədaxili problemlər nəticəsində məhv olan bir qadının hekayəsidir. Əslində, bir neçə qadın obrazının birləşməsi də var orda.

Digər tənqidlər də belə idi ki, müəyyən yerləri belə yazmalı deyilsən, məsələn, bu cür yazsan daha yaxşı olar. Təsəvvür edin, yazılıb və çap olunmuş roman haqqında bu cür düşüncə ilə danışırlar. Əsər qalır bir tərəfdə, bunlar deyə mən deyən kimi yaz.

Heç kimə etiraz etmədim, hər kəsin öz düşüncəsi var. Amma heç kim ciddi bir əsas gətirə bilmədi. Tənqidçi və ədəbiyyatşünas Tehran Əlişanoğlu oxuyandan sonra demişdi ki, bunu həqiqətən sən yazıbsan?

**- Esselərində miflər və müasir mətnlər arasındakı əlaqələri araşdırırsan, hadisənin, obrazların mətnin strukturundakı yerindən yazırsan. Bu gün ədəbi mətn üçün hansı meyarlar daha öncüldür?**

- Hər bir mətninin keçmişi var, kökü var, araşdıranda baxırsan ki, hansı qaynaqlara gedib çıxır. Mətni oxuyanda onu "tanımasan" yetərincə anlaya bilməyəcəksən. Mətndə təkcə süjet əsas deyil. Onun mahiyyətini ifadə etdiyi mənanı tapmaq lazımdır. Oxucular bir yana, yazarlar var mətni süjet kimi oxuyub, qəbul edirlər. Əslində, mətnin açılımı başqa yerlərə gedib çıxır. Müasir mətlərin mif-




lərə, nağıllara bağlılığı daha çoxdur. Bu keçmişə qayıdışdır, keçmişə yeni yanaşmadır. Bu qayıdış həm də dövrün tələbidir. Elə mətnlər var ki, birbaşa hansısa antik mətnə və ya süjetə bağlıdır. Bu cür mətnlərdə əlaqələr tapılmalıdır, yoxsa onu oxumaq faydasız zəhmətdir. Müasir mətndə hansısa hadisə açıq verilməyə bilər, lakin onun açılışı həmin o qədim mətndə var ki, oxucu da bunu bilməlidir. Strukturu bir-birinə bağlı olan mətnlər var ki, aralarında 1000 illik dövr dayanır.

Sualınızın ikinci hissəsinə gəldikdə isə deyim ki, indi elə bir ədəbi dövrə qədəm qoymuşuq ki, meyarsızlıq meyar hesab olunur. İndi daha çox peşəkarlıq irəli keçib. Oxucu müasir mətnlərə üstünlük versə də, diqqətlə baxanda görürsən ki, bu gün dünyada məşhur ola bir roman heç də müasir dövrün izminə cavab vermir. Belə olanda ədəbi yönü tutmaq bir az qəlizləşir. Lakin ədəbi çevrədə izimlər bir-birini əvəz edir. İndi dünya postmodernizmdən sonrakı mərhələdədir. Konkret olaraq ədəbi mətn üçün hansı meyarlar daha öncüldür demək çətindir. İndi çox adamın öz meyarı var.

**- Çağdaş nəsrimizdən razısanmı?**

- Çağdaş nəsrimiz dünya nəsrindən geri qalsa da, burda müəlliflərin günahı yoxdur. Ciddi imzalar var lakin, hadisəçilik bu imzaların peşəkarlığına kölgə salır. Köhnə estetika ilə, romantizm üslubunda çağdaş nəsr yazmaq müəllif haqqında qeyri-ciddi imic formalaşdırır. Bəzən müəllif özünün yazı üslubun bilmir. Məsələn, detektiv yazıçı postmodernist əsər yazır. Yaxud da "ağlamalı janrı" olan müəllif mətn içində mətn yerləşdirmək istəyir, lakin bunun texniki tərəflərini nəinki bilmir, hətta qəbul eləmək istəmir. Bütün bunlara baxmayaraq maraqlı və ciddi imzalar var. İstənilən halda biz müasir dünya nəsrindən geri qalırıq, çünki bizim nəsr dünya bazarına çıxa bilmir.

**- Sayt redaktorusan həm də. Bu gün ədəbi sayt və dərgilərin işindən razısanmı?**

- İndi sosial şəbəkələrin önə çıxması sayt və dərgilərin işini bir az çətinə salıb. Yaxşı mətnin saytda yayımlanmağından başqa sosial şəbəkədə onun reklamı və ya oxucuya çatmağı üçün də müəyyən iş görməlisən. Bu yöndən baxanda çətinliklər meydana çıxır. Yaxşı mətn kənarda qala bilər, yaxşı olmayan mətn tanıtım sayəsində oxucu rəğbətinə səbəb olar. Burda bəzi texniki məsələlər də var. Digər tərəfdən ədəbi sayt və dərgilərin sayının az olması rəqabət mühitini zəiflədir, nəticədə oxucunun ona təqdim edilən mətni oxumaqdan başqa çarəsi qalmır.

**- Sosial şəbəkələr dövrü ədəbiyyatımıza təsir edə bildimi?**

- Yuxarıdakı suala cavab verərkən ötəri də olsa bu məsələyə toxundum. Bəli, ciddi təsir edir. Bu həm texniki tərəfdən həm də mətnin keyfiyyəti baxımından baş verir. Texniki tərəfi odur ki, özünü müəllif hesab edən hər kəs sosial şəbəkələrdən istifadə edib özünü yazar kimi təqdim edər və oxucu auditoriyası qazana bilər. Bu populyarlıq rəqabəti zamanı keyfiyyətsiz mətnin önə keçməsi deməkdir. Yeni mətnlərin yaranması kontekstində də eyni hal baş verir. Sosial şəbəkələrdə hansı mətnlər trend olursa o mətnlər yeni yaranan mətnlərə təsir edir, onu özünə oxşadır. Bundan həvəsə düşən bəzi müəlliflər zamanın nəbzin "tutmağa" çalışırlar. Bu da öz növbəsində oxucunun zövqünə mənfi təsir edir.

**- Dünyada ədəbiyyat cəmiyyətdə ictimai fikrin yaranmasında əsas rolu oynayır. Son mükafatlar bunu bir də sübut etdi. Bəs bizdə vəziyyət necədi?**

- İctimai fikirdə həmişə ədəbi şəxslər öndə olub. Tarixə nəzər salanda bunu görmək olar. Sartr nəinki Fransada, hətta bütün dünyada ictimai fikrə ciddi təsir edib. Xüsusən Nobel mükafatçıları daha çox populyar olduğundan onların fikirləri daha geniş kütləyə təsir edirdi. Dünya miqyasında olan mükafatı alanların da ictimai şəxsə çevrilməsi təbiidir. Bizdə isə vəziyyət qərbdəki kimi deyil. Bunu şərq düşüncəsində olmağımızla da bağlamaq olar. Şərq ziyalısı, düşüncə adamı sülhə daha yaxındı. Etirazçı düşüncə şərq yazarı üçün o qədər də xarakterik deyil. İndi hesab edirəm ki, bizdə yazarlar o qədər də ictimai fikrə təsir etmək gücündə deyillər. Bunun bir səbəbi də odur ki, bizim ədəbi mühitiz qaynar deyil.

**- Nə yazırsan indi, yeniliklər varmı?**

- Mən həmişə yazmaqla məşğulam. Bəzən çap etdirməsəm də yazmağa davam edirəm. Ədəbiyyatla bağlı məqalə və köşə yazıları yazıram. Müasir türk ədəbiyyatı ilə bağlı bir kitabı dilimizə uyğunlaşdırıram. Arada ironik hekayələr də yazıram. Nar şeirləri öz yerində, şeir havasında olanda yazıram. Digər tərəfdən üçüncü romanı da bitirmək istəyirəm, bunun üçün hazırlıqlara başlamışam. İş çoxdu və mən də səbrlə öz işimdəyəm, görək necə olacaq.

**Söhbətləşdi: Rəvan Cavid**